# İzimizi itirməyək...

Dini abidələrimiz zəngin mənəviyyatımızın göstəricisidir.

İslam dini insan mənəviyyatı, daxilən zənginliyi, əsl insani keyfiyyətlərlə əhatələnmiş şəkildə dünyaya baxış, daim təmiz qəlblə yaşamaqdır. İslam humanizm, xeyirxahlıq, əməlisalehlik, etibarlılıq, bərabərlik, qardaşlıq prinsiplərinə sədaqətin və mənəvi birliyinin ifadəsidir. İslam dini imtahan üçün gəldiyimiz bu dünyadan uğurla müqəddəs məkanımıza dönəcəyimiz yolun ən böyük bələdçisidir. Bir sözlə, islam dini firavanlıq, əmin-amanlıq, sakitlik, dinclik, qardaşlıq və bərabərlik deməkdir.

Hal-hazırda Qəbələ şəhərində Umnisə Musabəyova küçəsində XVIII əsrin memarlıq nümunəsi, təkrarsız, klassik üslubа malik sənət əsəri olan Səkkizgüşəli məscid fəaliyyət göstərir. Sual oluna bilər ki, nə üçün səkkizgüşəli formada inşa edilib. Bu da dini əhəmiyyət kəsb edən amillərdən biridir. Cənnətin səkkiz qapıdan ibarət olduğu dini inanclara əsasən inşaat-memarlıq zamanı bu nöqteyi nəzərdən yanaşılmışdır. Qeyd edim ki, rayonun yuxarı hissəsində yerləşən bu məscid 1780-1790-cı illərdə iməcilik yolu ilə inşa edilmişdir. Bu da bir daha onu göstərir ki,həqiqətən də insanların islam dininə inamı, etiqadı böyük olmuş və nəticədə belə gözəl sənət əsəri meydana gəlmişdir. Tarixi məlumatlara görə XIX əsrin sonlarında Qəbələdə savad və zəkası ilə xüsusi hörmət sahibi olan ziyalı, dünyəvi elmlərin bilicisi ”İrşadi-İslam” (İslamın bələdçisi) əsərinin müəllifi Hacı Əhməd Əfəndi həmin məscidi öz vəsaiti hesabına təmir etdirmişdir. (Xatırladaq ki, ”İrşadi-İslam” kitabı Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin fondunda mühafizə edilir. Kitab 1911-ci ildə Bakıda Orucov qardaşları mətbəəsində nəşr olunmuşdur. Naşiri Molla Səid Əfəndiyevdir.



24 səhifədən ibarət olan bu kitab hal-hazırda dünyada iki ədəddir. Onlardan biri M.Y.Saltıkov-Şedrin adına Rusiya Federasiyasının Peterburqdakı Dövlət Kitabxanasında, o biri isə Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır).

Savadına və şəxsiyyətinə görə Əfəndizadə Hacı Əhməd Əfəndi Yelzavetpol quberniyasının Nuxa qəzasının Qutqaşın kəndinin din xadimi, böyük nüfuz sahibi idi. Ümimiyyətlə, tarixi məlumatlara nəzər salanda Qəbələdə məscidlərə dövrün tələbatı, xüsisi diqqət və qayğısı geniş olmuşdur. 1855-ci ilin “Qafqaz təqvimində” Qəbələ mahalında 56 məscidin fəaliyyət göstərməsi haqqında məlumat əksini tapmışdır.

Xatırladaq ki, 1980-ci illərin əvvəlində səkkizgüşəli məsid kitabxana kimi fəaliyyət göstərmiş və 2013-cü il Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən əsaslı təmir edilmişdir. Hal-hazırda rayonun mərkəzində yerləşən Cümə məscidi də XIX əsrin sonu - XX əsrin əvvələrinə aid tarixi abidə kimi keçmişimizdən xəbər verir, həm zövq oxşayır, həm də müqəddəs bir məkan kimi istifadədədir. Hər bir vətəndaş çox rahat bir şəkildə dini ibadətlərini bu müqəddəs məkanda həyata keçirməkdədir. Hamımız üçün əziz və müqəddəs olan bu məscidin tarixinə nəzər salaq. Cümə məscidi 1899-cu ildə inşa edilmiş və 1906-cı ildə istifadəyə verilmişdir. İnşa olunduğu il rayon əhalisi ümumrəy olaraq Cümə məscidinin tikilməsi üçün Hacı Zeynalabdin Tağıyevə məktub ünvanlayır. Hacı Zeynalabdin də məktuba razılıq cavabı verir və məmnun olduğunu bidirir. Məktubun məzmunu belədir: “Əziz Qutqaşın ağsaqqal və ziyalıları! Sizin belə bir nəcib təklifinizi eşitmək məni olduqca mütəəssir etdi. Mən bu müraciəti qəbul edirəm. Müasir dövrün tələblərinə uyğun geniş və işıqlı bir məscidin tikilməsi üçün barıları hördürün. Nə qədər tikinti materialı lazımdırsa, mən vaqonlara yükləyib Ləki stansiyasına yola salmağa hazıram”. Bu cavabdan sonra şəkili usta Kərim Kərimov Qutqaşına dəvət olunur və ciddi iş başlayır. Yerli əhəng və çay daşından, qırmızı kərpicdən ibarət barı hörülür. Rayonda kimin kəl, öküz, at arabası varsa işə cəlb olunur. Həmin arabalar vasitəsilə Ləkidən bir ay müddətində material daşınır və nəticədə 850 kv.m. sahəyə malik Cümə məscidi tikilir və istifadəyə verilir. Əldə edilən məlumatlara əsasən həmin illərdə Lazalı Ağa bəy və Cənubi Qafqaz Ruhani İdarəsi də məscidin tikliməsinə yardım etmişdir. Bildiyimiz kimi, sovet hakimiyyətinin qurulması ilə əlaqədar olaraq Azərbaycanda da vəziyyət tamamilə dəyişdi, məscidlər dağıdıldı, insanlar dini etiqadlarından uzaq düşdü və ciddi yasaqlar tətbiq edildi. Bunula da insanlara islam dinini unutdurmaq siyasəti əsas güc amili oldu. Lakin bu arada ümumi bir “şükürümüz“ də var ki, həmin ildə Cümə məscidi yerləyeksan edilmədi və müxtəlif məqsədlər üçün istifadəyə verildi. Bələki,1930-cu ildən etibarən rayonda qadınlar arasında savadsızlığın aradan qaldırılması məqsədilə ilə kurslar açılır və məscid məktəb kimi istifadəyə verilir.

Qeyd edək ki, sovet hakimiyyəti illərində Cümə məscidi anbar, daha sonra isə mədəniyyət müəssisəsi kimi fəaliyyət göstərmişdir. Daha sonra Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən 1985 - 1987-ci illərdə Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün uyğunlaşdırılmış və 2004-cü ilin aprel ayına kimi fəaliyyət burada davam etmişdir. Beləliklə 2004-cü ilin aprel ayında əsaslı təmir işləri başlanılmış və tikili son standarlara uyğun məscid kimi istifadəyə verilmişdir. Təmir zamanı divarda əmələ gələn çatlar nəzərə alınaraq 1899-1906-cı illərə məxsus palçıqdan ibarət suvaq qatı yenilənmişdir. (Həmin ərəfədə rəngləri təbii boyalarla boyanmış palçıq suvağının bir hissəsini Əməkdar Mədəniyyət İşçisi, 40 ilə yaxın Qəbələ rayon-Tarix-Diyarşünaslıq Muzeyinin direktoru olmuş Xalis Məmmədov muzey fondu üçün gətirmişdir).

Bu gün Cümə məscidi həm tarix və mədəniyyət abidəsi kimi, həm də geniş, rahat bir müqəddəs məkan kimi hər kəsin üz tutduğu bir yerdir. Uca Allahla, ona olan sonsuz sevgilərlə başbaşa, ürəklərdə arzuların, niyyətlərin, diləklərin ünvanlandığı və bu ünvanlardan xoş xəbər alan qəlblərə sakitliklə bərabər nur bəxş edən əsl islami keyfiyyətləri özündə təcəssüm etdirən bəndələrin mənəvi rahatlıq tapdığı güşədir. Beləliklə, tarixə nəzər saldıq, illəri, əsrləri vərəqlədik, qədim ulu keçmişimizə bir anlıq səyahət etdik. Bu hamımız üçün maraqlı, maraqlı olduğu qədər də lazımı, vacib məlumatdır. Çünki tariximizi sevməliyik, diqqət və qayğı ilə yanaşmalıyıq,bir sözlə qədim izimizi itirməməliyik.

**İlhamə SEYİDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisi.**

## Sfinks tapmacası

Qədim yunan əsatirlərinə görə, qadın kimi sifəti, aslan kimi bədəni, quş kimi qanadı olan Sfinks adamlara çətin tapmacalar deyərdi, tapmadıqda onları məhv edərdi. Bir dəfə şah Edipə də belə bir sual verir: “O kimdir ki, səhər dördayaqlı, günorta ikiayaqlı, axşam üçayaqlı gəzir? Edip cavab verir: “Bu insandır, uşaqlıqda (səhər) dördayaqlı gəzir (iməkləyir), böyüdükdə (günorta) ikiayaqlı, qocalanda isə (axşam) əsa ilə - deməli üçayaqlı gəzir”.

Tapmacanın cavabının tapıldığını görən Sfinks buna dözə bilməyib, özünü öldürür (başqa rəvayətə görə isə, onu Edip öldürmüşdü).

## 27 mart - Milli Teatr Günüdür

## Tamaşa təqdim edilmişdir

Qəbələ Rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən İsmayıl bəy Qutqaşınlı adına Qəbələ Xalq teatrının səhnəsində milli teatrın yaranması münasibəti ilə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" pyesi əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunmuşdur. Tamaşa izləyicilər tərəfindən böyük marağa səbəb olmuş və alqışlarla qarşılanmışdır.






QƏBƏLƏ qəzetinə

2024-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.



Redaktor
Azad Məmmədov.

TƏSİSÇİ:
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1270*